Ulu öndərin 95 illiyini 33 saylı uşaq musiqi məktəbi təntənəli qeyd etmişdir

Bakı şəhərindəki 33 nömrəli uşaq musiqi məktəbi 1984-cü ildən fəaliyyətdədir. Bu məktəbə Nəzifə Əliyeva 2015-ci ildən rəhbərlik edir. Elə həmin ildən də bu tədris ocağı öz intibah dövrünü yaşamaqdadır.

Ali ixtisas təhsili və musiqi nəzəriyyəçisi olan N.Əliyeva burada islahatlar aparmışdır. Elə bu islahatların nəticəsidir ki, məktəbdə əsaslı dönüş yaranmışdır. Müəllim kollektivinin səyi nəticəsində uşaqlar musiqini daha dərindən öyrənir, onların musiqi təmayüllü ali və orta ixtisas məktəblərinə qəbul olmaları üçün şərait yaradılır. Aparılan islahatlardan biri də kadrların düzgün seçilib yerləşdirilməsi, tərbiyə olunması, maddi-texniki bazanın möhkəmləndirilməsi məsələsi olmuşdur. "Tərəqqi" medallı Nəzifə Əliyevanın səyi nəticəsində məktəb artıq respublikamızın nümunəvi musiqi məktəblərindən birinə çevrilmişdir. İndi burada fortepiano, orkestr, skripka, tar, kamança, qarmon, qanon, nağara, klarnet, vokal və xanəndədik ixtisasları üzrə musiqiçilər hazırlanır.

Hazırda məktəbdə 340 nəfər şagird musiqinin sirlərinə yiyələnir. Eyni zamanda şagirdlər təkcə məktəbdaxili və rayon tədbirlərində deyil, respublika tədbirlərində də nailiyyətlər əldə edirlər. Məsələn, Ədilə Hüseynzadənin 100 illiyinə həsr olunmuş müsabiqə, respublikamızın dövlət müstəqilliyinin 25-ci ildönümünə həsr olunmuş respublika müsabiqəsi, uşaq və gənclər arasında vokal və estrada oxuma üzrə respublika müsabiqəsi, dahi Azərbaycan bəstəkarı Q.Qarayevin 100 illik yubileyinə həsr olunmuş V elmi-ifaçılıq müsabiqəsi, "Ümid" incəsənət-ifaçılıq müsabiqəsi, M.Maqomayevin 75 illik yubileyinə həsr olunmuş müsabiqə, ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş III Respublika müsabiqəsi və sair tədbirlər bu qəbildəndir. Qeyd etmək lazımdır ki, bu və ya digər respublika əhəmiyyətli tədbirlərdə məktəbin şagirdləri böyük fəallıq göstərmiş və bir çox fəxri fərmana, diplomlara layiq görülmüşlər. Məsələn, musiqi kollektivlərindən "Buta" nağaraçalanlar ansamblı, xor kollektivi, şagirdlərdən Əli Novruzov, Zəhra Cəfərli I yerə, Gülsüm Cəfərova diploma, Ferroza Dalila, Cəmilə Muradova, Elgün Həsənova və başqaları fəxri fərmanlara layiq görülmüşlər.

Onu da qeyd etməliyik ki, ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ilə əlaqədar Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında keçirilən hesabat konserti daha təntənəli olmuşdur. Belə ki, "Çahargah rəngi" və "Heyratı" ritmik muğamının sədaları altında başlayan hesabat konsertində J.Bize, İ.S.Bax, S.Kün, R.Mirişli, Q.Qarayev, A.Əlizadə, S.Prokofyev, V.Mustafazadə, R.Axundova və başqa bəstəkarların əsərlərindən parçalar ifa olundu. Bu əsərləri məktəbin şagirdlərindən Xədicə Muradova, Cəmilə Muradova, Riyad Səlimov, Süleyman İsmayılzadə, Məryəm Ağayeva, Aişə Məmmədova, Zəhra Cəfərli, Yusif Məmmədzadə, Selin Manafova və başqaları yüksək zövqlə oxudular.

Ulu öndərimizin 95 illik yubileyinə həsr olunmuş bu hesabat konsertinin yüksək zövqlə ərsəyə gəlməsində məktəbin müəllimlərindən A.Ağabəyov, L.Hüseynova, G.İmanverdiyeva, E.Allahverdiyeva, S.Manafova, C.Nəcəfov, B.Bədəlov, R.Məmmədov, F.Gözəlova və başqa müəllimlərin əməyi böyük olmuşdur.

Zabit CAVADOV,
"Respublika".

25 may.- 2018.- S.7-10.